# AÇAR SÖZLƏR İNFORMASİYA AXTARIŞ VASİTƏSİ KİMİ

**Namiyə Xəlilova**

*BDU, Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi*

21-ci əsrin əvvəllərinə kimi elmi məqalələr üçün xülasə və açar sözlər yazmaq tələb olunmurdu. Ötən illərdə xülasə və açar sözləri olmayan yüksəkixtisaslı akademik məqalələr ərsəyə gəlmişdir. Əslində ixtisaslı məqalənin keyfiyyəti xülasə və ya açar sözlərin olması ilə ölçülə bilməz. Əlbəttə, əvvəllər də yüksək keyfiyyətli akademik jurnallar var idi. Tarixin istənilən dövründə yazılmış yüksəkixtisaslı məqalələrə rast gəlmək mümkündür.

Bununla birlikdə həm xülasə, həm də açar sözlər bugünkü dünya üçün önəmli anlayışlardır. Xüsusilə internet və kommunikasiya texnologiyaları sahəsindəki inkişaf akademik yazı ənənələrinə dərindən təsir etdi. Artıq elektron jurnallar və kitablar ənənəvi jurnalları və kitabları əvəz etməkdədir.

Jurnalların rəqəmsallaşdırılması ilə birlikdə nəşr olunan məqalələrin asanlıqla əldə edilməsi zərurəti ortaya çıxdı. Əvvəllər bir məqalə üçün kitabxana rəflərinə müraciət edilirdisə, bu gün hər kəs axtarış sistemlərinə daxil olmaq üçün klaviatura düymələrinə müraciət edir. Yaranmış vəziyyətdə məqalələrin daha rahat əldə edilməsi üçün yeni kriteriyaların axtarışına başlanıldı. Bu axtarış isə xülasə və açar söz anlayışlarının akademik mühitə daxil olması ilə nəticələndi.

Akademik jurnalları axtaran milli və beynəlxalq indekslər axtardıqları məqalələri məqalə adı, qısa xülasə və açar sözlər vasitəsilə oxucularına təqdim edir. Bu vəziyyət, xüsusən internet axtarış mühərrikləri alqoritmləri (seo) baxımından məqalənin rahat tapılmasını zəruri edir. Tədqiqatçı axtarış sistemində bir söz axtardıqda həmin söz müəllifin xülasə və ya açar sözünə uyğun gəlsə axtarış nəticələrində o müəllifin də məqaləsi sıralanacaq. Bu halda məqalə üçün daxil ediləcək uyğun açar sözlər axtarış sistemləri baxımından məqalənin optimallaşdırılmasına kömək edəcək və onun əlçatanlıq faizini artıracaqdır. Müəlliflər aylarla vaxt və əmək sərf edərək bir mövzu üzərində işləyir və bəlkə də öz sahələrində ən yaxşı məqaləni yazırlar. Lakin məqalə əlçatan olmasa hər gün bir çox jurnalın nəşr olunduğu və yüzlərlə məqalənin dərc olunduğu dünyada həmin material diqqətdən kənarda qalacaq. Bu isə məqalənin layiq olduğundan daha az diqqət çəkməsi və oxunması deməkdir.

Axtarış sistemləri alqoritmləri (seo) baxımından təyin edilən açar sözün məqalənin başlığı, birinci abzas və nəticə hissəsində verilməsi tövsiyə

edilən önəmli nüanslardandır. Çünki açar sözün düzgün təyin edilməsi və mətndə lazımi yerlərdə yerləşdirilməsi axtarış sistemlərinə məqalənin nə ilə əlaqəli olmasına dair rəhbərlik edəcəkdir. Beləliklə, axtarış sistemləri müvafiq məqaləni tapa biləcəklər. Bu səbəbdən açar sözlər axtarış prosesini sürətləndirən önəmli vasitələr hesab olunur.

Hər bir elmi jurnal məqalə yazan müəlliflər qarşısında müəyyən texniki tələblər qoyur. Ancaq, ümumiyyətlə, demək olar ki, açar sözlər yazarkən xülasə ilə eyni yazı üslubundan istifadə edilməlidir. Xüsusi adlardan başqa digər sözlər üçün kiçik hərflərdən istifadə edilməli, sözlər arasında vergül işarəsi və sonra boşluq qoyulmalıdır.

Məqalə üçün açar sözlər təyin edərkən məzmuna daxil olmayan və məqaləni təmsil etməyən sözlərdən istifadə edilməməlidir. Çünki məqalə ilə əlaqəli olmayan açar sözləri müəyyənləşdirmək həm tədqiqatçılar, həm də axtarış sistemləri üçün aldadıcı olacaqdır. Bu isə həm məqaləyə, həm də müəllifin nüfuzuna xələl gətirən haldır. Ona görə də açar sözlər məqalənin məzmunu və alt sahələri ilə əlaqəli olmalıdır.

Açar sözlər sənədin məzmununu xarakterizə etmək və məlumatların axtarılmasına imkan vermək üçün istifadə olunan bir söz və ya bir qrup sözlərdir. Beləliklə, açar sözlərin siyahısı sənədin məzmununu müəyyənləşdirməyə imkan verir. Açar söz mətnin əsas məğzini özündə əks etdirən söz olmaqla internetdə axtarış üçün əsas vasitə hesab olunur. Açar söz digər açar sözlərlə birlikdə mətn sənədinin məzmununun yüksək səviyyəli təsvirini verən və mövzusunu müəyyənləşdirən söz olmaqla əsasən vebdə axtarış üçün istifadə olunur. Bir məqaləni ən qısa və aydın şəkildə əks etdirən söz və ya söz qrubu ifadəsi açar sözün lüğəti mənasıdır. Açar sözlər yazılan hər hansı bir məqalənin mahiyyətini ifadə edir. Ədəbi və ya elmi məqalələrin izah edilməyə çalışılan mövzusu vardır. Mövzunun nədən ibarət olduğu adətən bir neçə cümlə ilə izah edilir. Bu xülasə və ya giriş hissəsidir. Açar söz isə bu hissənin də qısaltmasıdır. Açar sözə başlıqdan (sərlövhədən) başqa sözlər də əlavə edilə bilər.

Nümunə üçün deyə bilərik ki, "21-ci əsrdə elektron biblioqrafiyanın inkişafı və nailiyyətləri" mövzusunda bir məqalə yazılarsa sonrakı mərhələdə müəllifin internetdə yayımlanacaq bu məqalə üçün açar sözləri müəyyən etməsi lazımdır. "21-ci əsrdə elektron biblioqrafiyanın inkişafı və nailiyyətləri" başlıqlı məqalədə pafoslu və lazımsız sözləri çıxarsaq aşağıdakı müvafiq açar sözləri əldə edə bilərik:

- Elektron biblioqrafiyanın uğuru
- Elektron biblioqrafiyanın inkişaf dövrü
- Elektron biblioqrafiya 21-ci əsr





- Elektron biblioqrafiya
- Elektron biblioqrafiya nə qədər inkişaf etmişdir?

Göründüyü kimi, açar söz sayı bu şəkildə daha da genişləndirilə bilər. Son nümunədə olduğu kimi sual cümlələrindən də açar sözlər yaratmaq mümkündür.

Açar söz yazılan məqalə və ya saytın əsas məzmunu haqqında məlumat verir. Açar sözlər veb saytın xülasəsidir. İnternetdə məlumat axtaran insanlar bu xülasə sayəsində saytdakı məqaləni tapır və oxuyurlar. Bu isə açar sözün ən vacib xüsusiyyəti hesab olunur.

Təəccüblü deyil ki, internet istifadəçilərinin əksəriyyəti və kompüter məlumat bazaları bütün digər axtarış növlərindən daha çox açar söz axtarışlarını üstün tuturlar.